# Azərbaycan Birinci Avropa Oyunlarının standartlarını və səviyyəsini təmin edəcək





Odlar Yurdu Azərbaycandan start götürəcək Birinci Avropa Oyunlarına hazırlıqla bağlı işlər yüksək səviyyədə həyata keçirilir. Çox qısa müddətdə görülən işlər bir daha təsdiqləyir ki, ilk Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizdə yaşanan Olimpiya hərəkatına verilən dəyərin təzahürüdür. Bu hadisə həm də Azərbaycanda idman sahəsində yaşanan inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın nümunəsidir. Son dərəcə maraqlı, qədim tarixi və zəngin mədəni dəyərləri olan Azərbaycanın Avropanın həyatında baş verəcək ilk belə hadisəyə ev sahibliyi etməsi təbii ki, həm də ölkəmizin son illərdə idman sahəsində qazandığı uğurlardan qaynaqlanır.

2015-ci il iyunun 12-dən 28-dək keçiriləcək ilk Avropa Oyunlarında 49 ölkədən 6 mindən artıq atlet idmanın 20 növü üzrə mübarizə aparacaq. İlk Avropa Oyunları Bakıda 21 məkanda keçiriləcək. Azərbaycanda Avropa Oyunlarına hazırlıq üçün Bakıda əzmkarlıqla çalışan güclü komanda fəaliyyətdədir. Bu günlərdə müxtəlif idman yarışlarının keçirilməsi üçün nəzərdə tutulan Bakı Olimpiya Stadionunun istifadəyə verilməsi də bu istiqamətdə görülən tədbirlərdən biridir. Belə möhtəşəm Oyunların açılış və bağlanış mərasimləri məhz Bakı Olimpiya Stadionunda baş tutacaq.

Təməli 2011-ci il iyunun 6-da qoyulan və yüksək keyfiyyətlə inşa olunan Bakı Olimpiya Stadionu ətrafında ümumilikdə 82 min kvadratmetrlik yaşıllıq sahəsi salınıb. Təxminən 50 hektar ərazidə tikilən stadionun hündürlüyü 62 metrdir və 6 mərtəbədən ibarətdir. 68 min tamaşaçı tutumlu stadiona Olimpiya normativlərinə əsasən insanların daha çox piyada və ictimai nəqliyyatla gəlməsi nəzərdə tutulub ki, bunun üçün də ərazidə 3 min 100 yerlik avtomobil parkı inşa edilib.

Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VİP, CIP və media bölmələri inşa olunub. Burada qonaqların rahatlığı üçün hər cür şərait yaradılıb. Bakı Olimpiya Stadionu müasir arxitektura üslubu, xüsusi gözəlliyi ilə seçilir və şəhərimizdə aparılan quruculuq işlərinə bir töhfədir. Stadionda yaradılan yüksək şərait təsdiqləyir ki, dünyada idman ölkəsi kimi tanınan, idmana, Olimpiya hərəkatına dəstəyi dövlət siyasətinin əsas istiqamətlərindən biri seçən Azərbaycanda bu cür infrastruktur layihələrinin icrası ölkəmizin gücünü göstərir. İlk Avropa Oyunlarına hazırlığın mühüm mərhələsi olan Bakı Olimpiya Stadionunun inşası bir daha bu mötəbər beynəlxalq idman tədbirinin yüksək səviyyədə baş tutacağına əminlik yaradır.

İlk Avropa Oyunlarına hazırlıqla bağlı işlərin beynəlxalq standartlara uyğun şəkildə vaxtında və yüksək keyfiyyətlə aparılması Birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın daim diqqət mərkəzindədir. Avropa Oyunlarının Koordinasiya Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları hazırlıq işlərinin yüksək səviyyədə aparılmasında xüsusi önəm daşıyır. İlk Avropa Oyunlarının xaricdə təbliğ olunması işinə də böyük əhəmiyyət verilir. Bununla bağlı Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın iştirakı ilə Avropanın bir sıra ölkələrində keçirilən təntənəli tanıtım mərasimlərinin əhəmiyyəti xüsusi önəm daşıyır. Məlumdur ki, oyunların keçirilməsi üçün Azərbaycanın 2 il vaxtı var idi. Görülən işlər bizə deməyə əsas verir ki, həqiqətən də ölkəmiz gələcək oyunların standartlarını və səviyyəsini təmin edəcək.

Avropa Olimpiya Komitəsinin prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin Direktorlar Şurasının üzvü Patrik Hikkinin dediyi kimi, Azərbaycan bu oyunların təşkilində dünyaya nümunə olacaq. İlk Avropa Oyunları hər kəsə - idmançılara, federasiyalara, milli olimpiya komitələrinə və bütünlükdə Avropa gənclərinə faydalı olacaq. Azərbaycanın tezliklə ev sahibliyi edəcəyi bu mötəbər idman tədbiri bütün dünya gənclərini ruhlandıracaq. Təbii ki, bu Azərbaycanda Avropa Oyunlarına yüksək səviyyədə hazırlıq işlərini aparılmasından qaynaqlanır.

**NƏZAKƏT**

